AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

Bakı AZ 1014, Kiçik Dəniz küç., 4 Tel.: (994 12) 598 50 94, Faks: (994 12) 493 06 95
http:// www.health.gov.az elektron poçtu: office@health.gov.az

84

15.02.2008 № 26

№ zə

# ƏMR

## "Xəstələrin stasionar müəssisələrə qəbulunun nizamlanması barədə"

Araşdırmalar göstərmişdir ki, son zamanlar respublikanın stasionar müəssisələrinə, xüsusən Bakı şəhərində yerləşən xəstəxanalara ambulator-poliklinika müəssisələrində müayinədən keçmədən, tibbi göstəriş olmadan, əsassız müraciətlərin sayı artmışdır ki, bu da xəstələrin stasionarlara hospitalizasiya olunması qaydalarının pozulmasına, onların qeyri-profilli tibb müəssisələrinə və şöbələrinə daxil olmasına şərait yaradır, müalicənin müddətinin uzadılmasına və keyfiyyətinin aşağı düşməsinə səbəb olur.

Qeyd olunanları nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Səhiyyə Nazirliyinin strukturuna daxil olan tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1. xəstələrin (təxirəsalınmaz hallar istisna olmaqla) stasionara qəbulu, ərazi ambulator-poliklinika müəssisələrin göndərişi əsasında həyata keçirilsin;

1.2. xəstələrin profil üzrə hospitalizasiyasına ciddi nəzarət təmin edilsin;

1.3. xəstələrin stasionar müalicəyə göndərilməsi, onların ambulator şəraitdə olan imkan daxilində tam müayinəsindən sonra və hospitalizasiyaya tibbi göstərişi əsaslandırmaqla təmin edilsin;

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə və Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi L.Seyidbəyovaya tapşırılsın:

2.1. xəstələrin elmi-tədqiqat institutlarına, ixtisaslaşdırılmış tibb müəssisələrinə, klinikalara planlı hospitalizasiyası qaydaları və tibbi göstərişlər müəyyənləşdirilsin;

2.2. Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının mərkəzi dispetçer xidmətini xəstələrin Bakı şəhərinin stasionarlarına hospitalizasiyası barədə təlimatla təmin etsinlər;

2.3. Bakı şəhərinin stasionarlarında boş olan çarpayılar haqqında məlumatın gündəlik olaraq təcili və təxirəsalınmaz tibbi yardım xidmətinə verilməsi təşkil edilsin.

3. Əmrin icrasına nəzarət Nazir müavini S.Kərimova həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**